HAQQIN SÖZÜ – SÖZÜN HAQQI    28 FEVRAL 2019-CU İL/ №004 (84)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur


2



*KİN* TEQRASİYA

3



SƏN HANSI YOLLA GEDİRSƏN?

4



GƏNCLƏR ÜÇÜN ŞANS - KİM "AXTARAN" MÜƏLLİM OLA BİLƏR?

6



NALMIX


## GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİ AZƏRBAYCANDA RƏSMİ SƏFƏRDƏ OLUB



Fevralın 27-si prezident Salome Zurabişvili Azərbaycana rəsmi səfər edib. Gürcüstan prezidentini Azərbaycan Respublikasının prezidenti İlham Əliyev qarşılayıb. Rəsmi qarşılama mərasimindən sonra prezidentlərin təkbətək görüşü keçirilib.

Azərbaycan prezidenti Salome Zurabişvilini prezident seçkilərində qazandığı qələbə münasibəti ilə təbrik edərək uğurlar arzulayıb.

"Əminəm ki, sizin səfəriniz Gürcüstan-Azərbaycan dostluq əlaqələrinin inkişafı üçün çox önəmli addım olacaqdır. Əminəm, aparacağımız müzakirələr bir daha təsdiqləyəcək ki, Gürcüstan və Azərbaycan bir-birinə çox yaxın ölkələrdir və birgə apardığımız işlər böyük nəticələr verir.

Biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik və bu əməkdaşlıq gündən-günə dərinləşir. Siyasət, iqtisadiyyat, mədəniyyət, nəqliyyat, energetika sahələrində çox gözəl nəticələr var. Əslində, elə bir sahə tapmaq çətindir ki, biz o sahədə əməkdaşlıq etməyək. Əlbəttə ki, gələcək əməkdaşlıqla bağlı bizim çox aydın fikirlərimiz var. Əminəm ki, səfər zamanı biz gələcək əməkdaşlıq istiqamətlərini müzakirə edəcəyik", - deyə İlham Əliyev bildirib.

Gürcüstan prezidenti qəbul üçün təşəkkür edərək deyib: "Şadam ki, regiona ilk səfərimi dostumuz olan qardaş ölkəyə edirəm. Mən Azərbaycana dost ölkənin prezidenti kimi səfərə gəlmişəm. Gürcüstanın bütün prezidentləri Azərbaycanın dostu olub və mən də bu ənənəni davam etdirirəm. Bizim münasibətlərimizin alternativi yoxdur və perspektivli əlaqələrimiz var.

Bizim region üçün və dünya üçün yeni perspektivlər açılır. Bu baxımdan əlaqələrimizi dərinləşdirmək daha da böyük əhəmiyyət kəsb edir. Əminəm ki, biz perspektivlərlə bağlı yeni təşəbbüsləri müzakirə edəcəyik".

Təkbətək görüş başa çatandan sonra hər iki prezidentin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. Daha sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. İlham Əliyev xanım Salome Zurabişvilinin şərəfinə rəsmi ziyafət verib.




## SOVET QOŞUNLARININ GÜRCÜSTANI İŞĞAL ETMƏSİNDƏN 98 İL ÖTÜR

Fevralın 25-i Sovet qoşunlarının Gürcüstanı işğal etməsi ilə bağlı ölkənin bütün dövlət qurumlarında bayraqlar endirilib.

Dövlət bayraqları prezidentin sarayında, parlament, nazirlik, mərkəzi və yerli dövlət idarələrinin binalarında da endirilib.

Qeyd edək ki, Gürcüstan parlamentinin 21 iyul 2010-cu il tarixli qərarı ilə fevralın 25-i Sovet işğalı günü elan olunub. 1921-ci ilin fevralın 25-də Qırmızı ordu Tbilisiyə daxil olub və Gürcüstan Demokratik Respublikasını devirib.

## GİORGİ QAXARİYA TÜRKİYƏDƏ SƏFƏRDƏ OLUB

Gürcüstanın daxili işlər naziri Giorgi Qaxaria Türkiyə Cümhuriyyətinə rəsmi səfəri çərçivəsində türk həmkarı Süleyman Soylu ilə görüşüb.

Görüşdə tərəflər iki ölkənin hüquq müəssisələri arasında olan əməkdaşlıqdan danışıblar. Həmçinin təşkil edilmiş cinayətin, oğru dünyasına qarşı mübarizədə nail olunan nəticələr haqqında da söhbət aparılıb.

Görüşdə Giorgi Qaxaria və Süleyman Soylu gələcək əməkdaşlıq planlarını da müzakirə ediblər. Eləcə




də transsərhəd cinayətinə qarşı mübarizədə və iki ölkənin təhlükəsizliyinin gücləndirilməsi istiqamətində də müzakirələr aparılıb.



# *KİN* TEQRASİYA

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**İnteqrasiya... İnteqrasiya... İnteqrasiya... Bu gün məktəblidən tutmuş pensionerə, gürcüdən tutmuş azərbaycanlıya – hamı bu sözü elə gözəl tələffüz və intonasiya ilə deyir ki, adam az qalır doğrudan da inteqrasiya ola. Amma nəyə və kimə? Harada, necə və nə zaman? Ümumiyyətlə, inteqrasiya mümkündürmü? Nədir inteqrasiya?**

Lüğətdə latın sözü kimi göstərilən bu ifadə "əlahiddə hissələrin tamda birləşməsi haqqında sistemlər nəzəriyyəsi anlayışı və bu nəzəriyyənin obyekti olan təbii və ya ictimai proseslər" kimi izah edilir. Gürcüstanda yaşayan azərbaycanlıların gürcü cəmiyyətinə inteqrasiyası prosesi adı altında seminarlardan tutmuş layihələrə qədər həyata keçirilib, Azərbaycan dilli məktəblərdə gürcü dili kursları açılıb, gürcü universitetlərinə azərbaycanlıların asan qəbulu üçün "1+4" proqramı həyata keçirilib və sair. İnteqrasiyaya mane olan ən əsas amil azərbaycanlıların gürcü dilini bilməməsi göstərilir. Düzdür, məktəblərdə dil kurslarının fəaliyyəti və "1+4" proqramı gürcü dilini öyrənənlərin, gürcü dilində danışanların sayını artırdı, amma inteqrasiya təkcə budurmu? Bir azərbaycanlının gürcü dilini əla bilməsi, dövlət orqanlarında, gürcü təşkilatlarında işlə təmin olunması inteqrasiyadırmı? Bu, gürcü cəmiyyəti ilə, bir gürcü vətəndaşla tam olmaq, eyni olmaq deməkdirmi?

Nə qədər ki, eyni ölkənin vətəndaşlarına "milli azlıq", "etnik azlıq" kimi ayrıseçkilik damğaları vurulacaq, heç vaxt inteqrasiyadan söhbət gedə bilməz. Nə qədər ki, ölkənin prezidentindən tutmuş, bələdiyyə rəhbərinə kimi, bütün ölkə əhalisinə eyni, bərabər hüquqlu vətəndaş münasibəti olmayacaq, "siz-biz" dialoqu ilə danışılacaq, inteqrasiyadan söhbət gedə bilməz. Nə qədər ki, millət vəkilləri (deputatlar) parlamentdə bütün vətəndaşların marağından çıxış etməyəcək, millətlərin nümayəndələri olaraq çıxış edəcək, inteqrasiyadan söhbət gedə bilməz. Nə qədər ki, dövlət muzeylərində gürcü rəssamları ilə yanaşı yerli azərbaycanlı rəssamların əsərləri sərgilənməyəcək, nə qədər ki, dövlət teatrlarında azərbaycanlı aktyorların gürcü fanatları olmayacaq, nə qədər ki, "kartveli xar?", "azerbaijaneli xar?" sualı veriləcək, inteqrasiya olmayacaq. Nə qədər ki, insanlar milli mənsubiyyətinə görə bir-birini seçəcək, nifrət edəcək, *kin* saxlayacaq, inteqrasiya yox, *kin*teqrasiya olacaq. Nə qədər ki, Gürcüstan prezidentinin Əli, Mamed, Vəli ola biləcəyinə bir nəfər belə inanmayacaq, o zaman inteqrasiya pişiyimizin adıdır, vəssalam.

Bəziləri bilərəkdən, bəziləri də bilməyə-bilməyə inteqrasiya ilə assimilyasiyanı səhv salaraq yeni ximeralar yaratdı (yaradır). Ümumiyyətlə, inteqrasiya könüllü olmalıdır, zorla yox. İnteqrasiya qarşılıqlı olmalıdır, birtərəfli yox. Məsələn, Pasxa bayramı ölkədə rəsmi olaraq iş günü olmadığı kimi, həmin gün milliyyətindən asılı olmayaraq hamının istirahət etdiyi kimi, Novruz bayramında da hamı istirahət etməlidir, ölkənin rəsmi bayramı olmalıdır. İnteqrasiya bir cəmiyyətin dilini, dinini, mədəniyyətini, kültürünü inkar edib, unudub başqa cəmiyyətlə tamlaşmaq, birləşmək, əriyib getmək deyil, gürcü dilini öyrənmək üçün Azərbaycan dilini unutmaq deyil. Əksinə, bunların hamısını bir öyrənməkdir. Özü də qarşılıqlı olaraq. Hər iki cəmiyyət bir-birini düzgün tanımazsa inteqrasiya olmaz, vətəndaş cəmiyyəti formalaşmaz.

**Məsələn, fevralın 26-si Gürcüstan parlamentinin təhsil, elm və mədəniyyət komitəsinin sədri Mariam Caşinin İctimai kanalda yayımlanan bəyanatı inteqrasiya məsələsinə şübhələr yaradır və birbaşa xələl gətirir. Xanım Caşi deyib ki, "Azərbaycanda yaşayan gürcülərin hüquqları ilə Gürcüstanda yaşayan azərbaycanlıların hüquqları təhsil və digər sahələrdə eyni olmalıdır". Yəni belə çıxır ki, dövlət nümayəndəsi ölkəsinin vətəndaşlarından (Gürcüstan azərbaycanlıları) başqa dövlətlə (Azərbaycanla) danışıqlar aparmaq üçün istifadə edir. Yəni, əgər qonşu ölkədə yaşayan gürcülərin hüquqları pozularsa, mən də öz vətəndaşlarımın hüquqlarını pozacam. Bərəkallah! Dünya siyasəti tarixində analoqu olmayan bəyanatdı. Gəl indi bundan sonra bu diskriminasiya divarlarını ucur və inteqrasiya ol. Əgər hökumət nümayəndəsi dilindən, dinindən, milliyətindən asılı olmayaraq bütün vətəndaşların eyni hüquqa malik olmasını bilmirsə, inteqrasiyanın nə olduğunu haradan bilsin. Ümumiyyətlə, futbolçu stadionda, rəssam emalatxanada, aktyor səhnədə, müəllim məktəbdə, siyasətçi parlamentdə, tibb bacısı xəstəxanada çalışmalıdır və s. Peşələrlə idarələrin yeri səhv düşəndə inteqrasiya da tərsinə gedir.**

## SALOME ZURABİŞVİLİ FRANSA PREZİDENTİ İLƏ GÖRÜŞÜB



Fransada işgüzar səfərdə olan Gürcüstan prezidenti Salome Zurabişvili fransalı həmkarı Emanuel Makronla görüşüb.

Paytaxt Parisdə keçirilən görüşdə iki ölkə arasında müxtəlif sahələrdə mövcud əlaqələr, Avropa İttifaqı-Gürcüstan münasibətləri müzakirə olunub.

E.Makron bildirib ki, Fransa Gürcüstanın suverenliyi və beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü dəstəkləməkdə davam edir.

Tərəflər eyni zamanda Cənubi Qafqaz və Qara dəniz regionunda vəziyyət və təhlükəsizlik məsələlərini də nəzərdən keçiriblər.

Görüşdə həmçinin Gürcüstan və Fransa arasında iqtisadi əlaqələrin daha da gücləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, iki ölkə arasında əməkdaşlıq haqqında bəyannamə imzalanıb.

Salome Zurabişvili Emanuel Makronu Gürcüstana səfərə dəvət edib.

## MAMUKA BAXTADZE: "GÜRCÜSTANIN RUSİYA İLƏ DİPLOMATİK MÜNASİBƏTLƏRİ İŞĞAL SONA ÇATMAYANADƏK OLMAYACAQ"



"Gürcüstanın Rusiya ilə diplomatik münasibətləri mövcud deyil və bu əlaqələr Rusiyanın ərazilərimizi işğal altında saxlayanadək də olmayacaq". Bunu Gürcüstanın baş naziri Mamuka Baxtadze hökumət iclasından öncə keçirdiyi brifinqdə bildirib.

O, Abaşidze-Karasin formatında görüşlərin keçirilməsinin gərəkli olub-olmadığını da şərh edib: "Bu format bir neçə il bundan öncə yaradılıb və bunun nə üçün yaradıldığı yadımızdadır. Bu formatın əsasən iqtisadi və humanitar məsələlərlə bağlı istiqamətləri var. Rusiya Gürcüstan ərazilərini işğal altında saxlayana qədər bu ölkə ilə diplomatik münasibətlərimiz olmayacaq. Bu, çox prinsipial məsələdir".

Qeyd edək ki, Gürcüstan baş nazirinin Rusiya ilə münasibətlər üzrə nümayəndəsi Zurab Abaşidze və Rusiyanın xarici işlər nazirinin müavini Qriqori Karasin iki ölkə arasında diplomatik münasibətlərin olmadığı şəraitdə 2012-ci ildən etibarən qeyri-rəsmi dialoq aparırlar. Gürcüstan və Rusiya arasında diplomatik münasibətlər 2008-ci ildə kəsilib.

## OMBUDSMAN NİNO LOMCARİA AZƏRBAYCANLILARIN MÜDAFİƏSİNƏ QALXIB




Gürcüstan ombudsmanı Nino Lomcaria parlamentin təhsil, elm və mədəniyyət komitəsinin sədri Mariam Caşinin yerli azərbaycanlılarla bağlı səsləndirdiyi fikirləri sərt tənqid edib.

M.Caşi Azərbaycanda yaşayan gürcülərlə Gürcüstanda yaşayan azərbaycanlıların bərabər hüquqlara malik olmalı olduğunu söyləyib.

N.Lomcaria M.Caşinin bəyanatında yanlış fikirlərin olduğunu bildirib.

"Gürcüstanda yaşayan etnik azərbaycanlılar bu ölkənin vətəndaşlarıdır, gürcü və digər millətlərdən olan vətəndaşlarla eyni hüquqlara malikdirlər. Gürcüstan vətəndaşlarının etnik mənsubiyyətə görə bölünməsi olduqca ədalətsiz və yolverilməzdir. Etnik azlıqlar da daxil olmaqla, vətəndaşlarımızın hüquqlarının müdafiə olunması dövlətimizin vəzifəsidir", - deyə ombudsman bildirib.

## UŞAQLAR VƏ GƏNCLƏR MİLLİ AGENTLİYİ YARADILACAQ

Uşaqlar və Gənclər Milli Agentliyi yaradılacaq. Bununla bağlı Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi qanun layihəsi hazırlayıb.

Agentliyin yaradılmasında əsas məqsəd hökumət və gənclər arasında kommunikasiyanın intensivləşdirilməsi, uşaq və gənclərin ictimai həyata cəlb olunmasına dövlət dəstəyinin artırılması və hüquqlarının müdafiəsidir.

Yeni dövlət qurumu ictimai hüquqlu hüquqi şəxs olacaq və hökumətin nəzdində fəaliyyət göstərəcək.



## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİ XOCALI QƏTLİAMI İLƏ BAĞLI BƏYANAT YAYIB




Türkiyə bəşəriyyət tarixinə qara ləkə olan Xocalı qətliamının təkrarlanmaması üçün beynəlxalq ictimaiyyətə çağırış edib.

Türkiyə Böyük Millət Məclisinin Xarici Məsələlər üzrə Komissiyası Xocalı qətliamı ilə bağlı bəyanat yayıb.

Xocalı soyqırımının bəşəriyyət tarixinə qara ləkə olduğu vurğulanan bəyanatda Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı ilə İslam Əməkdaşlıq Təşkilatına bu faciəyə lazımı əhəmiyyət vermələri və lazımı reaksiya göstərmələri ilə əlaqədar çağırış edilib.

Bəyanatda Ermənistan hərbi birləşmələrinin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Dağlıq Qarabağın Xocalı şəhərinə təşkil etdiyi hücumu nəticəsində 106-sı qadın, 63-ü uşaq və 70-i qoca olmaqla 613 günahsız Azərbaycan vətəndaşının vəhşicəsinə qətlə yetirildiyi, 76-sı uşaq olmaqla 487 nəfərin yaralandığı, 1275 nəfərin girov götürüldüyü bildirilib. Onlardan 150 nəfərin taleyi hələ də məlum deyil.

"Türkiyə Ermənistan hərbi birləşmələri tərəfindən həyata keçirilən bu qətliamı kəskin dillə qınayır. Qətliamı törədənlərin beynəlxalq məhkəmə qarşısında cavab vermələri ilə əlaqədar çağırışımızı təkrar edirik. Xocalı qətliamı nəticəsində həlak olan azərbaycanlı qardaşlarımızın xatirəsini hörmətlə yad edirik, kədərli ailələrinə və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı veririk", - deyə bəyanatda bildirilib.

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNƏ YENİ SƏDR SEÇİLİB



Hakim Ədalət və İnkişaf Partiyasının (AKP) namizədi, Təkirdağın millət vəkili Mustafa Şentop Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri seçilib.

TBMM-yə sədrlik uğrunda 4 namizəd mübarizə aparıb. Müxalifətdə olan Milliyyətçi Hərəkat Partiyası AKP xeyrinə sədrliyə namizəd irəli sürməyib.

Mustafa Şentop səsvermənin üç turunda tələb olunan sayda səs toplayaraq Türkiyə Böyük Millət Məclisinin sədri seçilib.

Bu vaxtadək Türkiyə parlamentində AKP millət vəkilləri qrupuna rəhbərlik edən Mustafa Şentop ixtisasca hüquqşünasdır. O, ardıcıl olaraq dörd çağırışda Türkiyə parlamentində təmsil olunur.

Parlamentin iclasında digər təşkilati məsələlərə də baxılıb. İspartadan olan deputat Süreyya Sadi Bilgiç Türkiyə parlamentində AKP millət vəkilləri qrupuna rəhbər seçilib.

Xatırladaq ki, TBMM-nin keçmiş sədri Binəli Yıldırım martın 31-də keçiriləcək bələdiyyə seçkilərində İstanbul Böyükşəhər bələdiyyəsi sədrliyinə namizəd olduğu üçün spiker postundan istefa verib.

## GÜRCÜSTANDAN TÜRKİYƏYƏ İXRAC 24% AZALIB, TÜRKİYƏDƏN GÜRCÜSTANA İDXAL İSƏ 6,4% ARTIB



Gürcüstanın Milli Statistika Xidmətinin göstəricilərinə görə, cari ilin yanvar ayında Türkiyədən 90.7 milyon dollarlıq idxal həyata keçirilib. Ötən ilin göstəricisi ilə müqayisədə bu, 6,4% çoxdur.

Ən çox idxal ölkələri arasında Türkiyə birinci yeri tutur. Türkiyənin ümumi idxaldakı hissəsi 15,4%-dir.

İxrac məsələsinə gəldikdə isə, Gürcüstandan Türkiyəyə ixrac 24%, 21.3 milyon dollara qədər azalıb. Türkiyənin ümumi ixracda hissəsi 8,9%-dir və ən çox ixrac ölkələri arasında dördüncü yerdədir.

Türkiyədən Gürcüstana daxil olan əsas məhsullar medikamentlər, geyim də daxil olmaqla hazır məhsul, rezin pnevmatik təkərlər, metal konstruksiyalar, naqillər və kabellərdir.

Gürcüstandan Türkiyəyə isə mis filizlər və konsentratlar, poladdan yarımfabrikatlar, trikotaj məhsulu, dəmir ərintiləri ixrac edilir.

Statistika Xidmətinin məlumatına görə, 2019-cu ilin yanvar ayında Gürcüstanda məhsulun xarici ticarət dövriyyəsi 826.8 milyon dollar təşkil edib. Ötən ilin analoji dövrü ilə müqayisədə ixrac 7,2% artıb və 238.8 milyon ABŞ dolları təşkil edib. İdxal 1,1%-lə 588 ABŞ dollarına qədər azalıb. Gürcüstanın mənfi ticarət balansı 349.2 milyon ABŞ dolları və xarici ticarət dövriyyəsinin 42,2%-ni təşkil edib.

## TÜRKİYƏYƏ UÇUŞ ZAMANI TƏYYARƏDƏ MOBİL TELEFONDAN İSTİFADƏYƏ GÖRƏ TƏYİN EDİLMİŞ CƏRİMƏ ARTIRILIB

Türkiyəyə uçuş zamanı təyyarədə mobil telefondan istifadə etmək və siqaret çəkmək üçün təyin olunmuş cərimələr artıb.

"Resmi Gazete"nin yazdığına görə, hökumətin 14 fevralda yayımlanmış yeni sərəncamına əsasən, bu qayda pozuntusu üçün cərimə 2124 lari dəyərində olacaq. Bundan əvvəlki tənzimləmələrə əsasən cərimə 717 larini təşkil edirdi.

Cəriməni Türkiyənin Mülki Aviasiyasının müvafiq strukturu yazacaq. Cərimələnən şəxs isə 15 gün ərzində cəriməni şikayət edə bilər.

## SƏN HANSI YOLLA GEDİRSƏN?



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

**İnsan bu dünyaya göz açandan bir yol getmək məcburiyyətindədir. Bu yolu həm məcazi, həm də həqiqi mənada qəbul edə bilərsiniz. İnsanın doğumundan ölümünə olan yaşam həyatındakı zaman da bir yol olaraq anlaşıla bilər. Bir də təhsil almaq üçün məktəbə, pul qazanmaq üçün işə və s. yerlərə getmək üçün də yol qət etməlidir. Bu siyahını xeyli uzatmaq olar. Mənim bu yazıda əsas olaraq vurğulamaq istədiyim həyat yolunda yeriyərkən daha düzgün bir yol seçmək və o yolda yeriməkdir. Bu yolda elə getməlisən ki, nə özünə, nə ətrafına və ətrafındakılara zərər verməyəsən. Üstəlik bu yolun sonunu da nəzərə almaq lazımdır ki, mənzilə alnıaçıq, üzüağ gedib çatasan.**

Bəli, dəyərli oxucu, bir çox yazımızda olduğu kimi bu yazımızda da işin mənəvi yönünü ələ almaq qərarına gəldik.

İnsan çıxdığı yolda sadəcə başını sallayıb yeriməklə gedəcəyi məkana çata bilməz. Onun məkana gedə bilməsi üçün bir rəhbərə və ya bir yol nişanına ehtiyacı var ki, mənzilə çata bilsin. Dini həyatda da belədir. Bəziləri mənə sadəcə Quran yetər deyib durur. Quran, yuxarıda da vurğuladığımız kimi, bizi qurtuluşa aparan bir yoldur. Ancaq bu yolda necə gedəcəyimizi, nələrə diqqət edəcəyimizi bizə açıqlayan bir rəhbərə, bir yol göstərənə ehtiyacımız var. Bu yol göstərən də Peyğəmbərdir, onun sünnəsidir, hədisləridir. Misal verəsi olsaq, namaz haqqında deyə bilərik ki, Quranda namaz qılmağımız əmr olunur və ya zəkat verməyimiz əmr olunur. Ancaq bunların nə şəkildə ediləcəyi açıqlanmır. Bu yerdə biz məcburuq ki, Peyğəmbərin həyatına nəzər salaq. Çünki Rəsulullah bir hədisi şərifində "Mənim necə namaz qıldığımı görsəniz elə namaz qılın" buyurur.

Həyatımızın digər sahələrində də Rəsulullahın yolunda yeriməkdə fayda var. Çünki Allah Qurani-Kərimdə "And olsun ki, sizin üçün Allaha və axirət gününə qovuşmağı arzu edənlərə və Allahı çox anan (zikr edən) kimsələrə Rəsulullah ən gözəl örnəkdir" buyurur (Əhzab, 21). Başqa bir ayədə – Ənbiya surəsinin 107-ci ayəsində isə "Biz səni aləmlərə rəhmət olaraq göndərdik" deyə xitab edir. Belə bir Peyğəmbərin ümməti olmaq, onun getdiyi yolla getmək bizim üçün qurtuluş yolu deyil də bəs nədir?

Onun yolunda yürümək Allahın bizə əmanət olaraq verdiyi və əcəlimizin gəlib çatdığı gündə də geri alacağı əmanəti tərtəmiz olaraq qorumaq üçün gözəl bir vasitədir. Onun yoluyla getmək kirlənmiş dünyada şərab aludəçiliyindən, narkotikin çirkabından, oğurluğun utancından və s. pisliklərdən qorunmağın ən gözəl yoludur. Bir din xadiminin dediyi kimi, "Cənnətə gedən yol pulsuzdur, ancaq cəhənnəmə gedən yolu biz pulla satın alırıq". Bu fikirlə tamamilə razıyam. Çünki namaz qılmaq, oruc tutmaq üçün heç bir ödəmə lazım deyil. Ancaq günah olan işlər üçün – içki, şərab almaq üçün, zina etmək üçün bəlli bir məbləğ ödəmək lazımdır.

Cəhalət dövrü yaşayan ərəbləri dünyanın keçmiş və gələcək olan ən gözəl mədəniyyətinə sahib edən, hər zaman sülh tərəfdarı olan, nəinki insanların, hətta heyvanların belə haqqını qoruyan bu gözəl dini ləkələməyə çalışanlar var. Onlar dünyanın bir çox yerində terror aktları törədərək, qətliamlar həyata keçirərək bunları da İslamın adına çıxmaqdadırlar. Bizi doğru yolumuzdan çevirib özləri getdikləri yanlış yola yönəltmək istəyirlər. Halbuki İslam dini müharibə əsnasında belə günahsız insanlara, qadınlara, qocala, uşaqlara, hətta yaşıllığa belə zərər verməyi qadağam edir.

Bizim içimizə fitnə-fəsad salaraq dinimizə, inancımıza xələl gətirmək istəyənlərə, bizi bizə düşmən etmək istəyənlərə o iki cahan günəşinin həyatını öyrənməklə və sünnəsini həyatımızda tətbiq etməklə cavab verməliyik.

Odur ki, bu qısa həyatımızda yolumuzu düzgün seçək ki, sabah qəbir həyatındakı ilk sorğumuz olan "Allahın sənə verdiyi ömrü harada keçirdin?" sualına qürurla cavab verə bilək.

**Hər birinizlə düzgün yolun sonunda görüşmək ümidi ilə...**

# GƏNCLƏR ÜÇÜN ŞANS – KİM "AXTARAN" MÜƏLLİM OLA BİLƏR?

Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin nümayəndələri son zamanlar tez-tez müəllim peşəsinə gənc kadrların cəlb edilməsi haqqında danışırlar. "Axtaran proqramı" məhz bu məqsədə xidmət göstərməlidir. Proqram cari ilin sentyabr ayından təshilini yeni bitirmiş gənclərə məktəblərdə çalışmaq və bununla yanaşı peşəkar inkişaf etmək imkanı yaradacaq.

Əgər şəxs, məsələn, kimya, fizika, tarix üzrə bakalavr təhsili bitiribsə və müəllim kvalifikasiyası yoxdursa, məktəbdə vakansiya olan zaman "axtaran proqramına" qoşula bilər. 2 ildən sonra isə "axtaran" müəllim bütün kompetensiyanı qane edərsə baş müəllim statusu qazanacaq. Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzdə hesab edirlər ki, fənni yaxşı bilən və universitet sahəsində bu istiqamətdə kompetensiyaları təsdiqlənən gənc fənni maraqlı tədris edə bilər.

"Axtaran" müəllimlər hansı kompetensiyaları qane etməlidirlər? "Axataran" statusuna malik olan şəxs müstəqil şəkildə dərs keçə bilərmi? Məktəblər tərəfindən təcrübəsiz kadrın qəbul edilməsinə maraq nə dərəcədə olacaq? "Axtaran" statusu olan şəxsin müəyyən saatları olacaqmı? Bu suallarla bağlı "etaloni.ge"yə Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin müavini Manana Ratiani cavab verib.

- "Ümumi təhsil haqqında" qanuna əsasən, "axtaran" müəllim kimi çalışmaq istəyən kvalifikasiya tələbləri Milli Tədris Planına uyğun olan gənc ola bilər. Məsələn, həmin gənc kimya, fizika və tarix üzrə bakalavr təhsilini yeni başa vurub, ancaq kvalifikasiyası yoxdur. Məktəbdə vakansiya olan halda direktor belə şəxslə müqavilə bağlaya bilər və həmin şəxs sentyabrdan "axtaran proqramına" qoşula bilər.



Beləliklə, qeyd edilməlidir ki, 2 il ərzində "axtaran" olan şəxs müəyyən kompetensiyalar toplaya bilər. Bu akademik proqramlar üzrə ali təhsil müəssisəsinin müəllimlərinin kvalifikasiya vermək və hazırlamaq üçün nəzərə aldıqları müəllimin fənn xüsusiyyətləri ilə uyğun olmalıdır. Məhz bu kvalifikasiyanın təsdiqlənməsi mərhələli şəkildə olacaq.

***- "Axtaran" statusunun qəbul edilməsinin məqsədi gənc kadrların peşəyə daxil olmasına bağlanır. Necə düşünürsünüz, məktəblər tərəfindən təcrübəsiz kadrları məktəbə qəbul etmək marağı və tələbi nə dərəcədə olacaq?***

- Məhz buna görə deyirik ki, bu gənclərə sistematik, əsaslı dəstək lazım olacaq. Bunu isə bizim mərkəz göstərəcək. Fərq etmir, bu təcrübə və ya nəzəri komponent olacaq. Bu, başqa ölkələrdə də öyrənilmiş təcrübədir.

Bizim mərkəz hesab edir ki, fənni yaxşı bilən və bu istiqamətdə yeni kompetensiyaları universitet sahəsində təsdiqlənmiş olan gənc ən azı fənni maraqlı tədris edə biləcək və biz artıq ona pedaqogikada daha yüksək kvalifikasiya almağa kömək edəcəyik.

***- Maraqlıdır, "axtaran" müəllim dərsə müstəqil şəkildə girəcək, yoxsa prosesi idarə etməkdə kömək göstərəcək şəxs də onunla birgə dərsə daxil olacaq?***

- O dərs keçəcək. Bununla yanaşı istiqamətləndirmə təlimləri olacaq, həmçinin məktəbdə bu növ təcrübəsi olan mentor və ya aparıcı müəllim olarsa onunla əməkdaşlıq edəcəyik ki, "axtaran" statusu olan şəxsə müvafiq məsləhətlər versin. Müəllimlər üçün, yəqin ki, bu hissə maraqlı olacaq. Əgər məktəbdə mentor və ya aparıcı müəllim yoxdursa, bu halda bizim mərkəz yardım edəcək.

Bu yardım texnologiyalar vasitəsilə olacaq, çünki ola bilsin "axtaran" şəxs region məktəbinə daxil olsun və bütün il ərzində məsləhətlər almaq və yardım göstərmək texnologiyalardan istifadə etməklə baş tutacaq – plan üzərində çalışmaq, dərs planının tərtib olunması, idarəsi və s. Nəticədə "axtaran" şəxs təcrübə əldə edəcək. Eləcə də 2 il ərzində bütün tələb olunan kompetensiyaları təsdiqlədikdən sonra "axtaran" müəllimə baş müəllim statusu veriləcək. Müəllim statusu qazandıqdan sonra o, daha da təkmilləşmək üçün müvafiq imtahanları verə biləcək.

***- "Axtaran" statusu olan şəxsin məktəbdə konkret saatları olacaqmı?***

- Bu, məktəbə bağlıdır. Məktəb "axtaran" statusu olan şəxsə neçə saat versə o qədər də dərs keçəcək. Məktəbin həmin şəxslərə neçə saat dərs verməli olması mərkəzləşdirilmiş şəkildə müəyyən edilməyib.

***- "Axtaran" statusu olan şəxs hər hansı sinifə daxil ola biləcəkmi?***

- "Axtaran" statusu olan şəxs ibtidai, baza və orta pillələrə daxil ola biləcək. Bu, məktəbin elan etdiyi vakansiyadan asılı olacaq. Biz kömək edəcəyik ki, müəllim "axataran" yolunda ona lazım olan kompetensiyaları doldursun ki, yekunda sistemdə kvalifikasiyalı müəllimimiz olsun.

*Gürcü dilindən tərcümə:*
*Aynurə Əliyeva*

## GÜRCÜSTANIN HANSI UNİVERSİTETLƏRİ BEYNƏLXALQ STANDARTLARA CAVAB VERİR?



Təhsil haqqı yəqin ki, çox əhəmiyyətli komponentdir. Ancaq təhsil almaq üçün ödədiyimiz pulla təhsilin keyfiyyətinin uyğun gəlib-gəlmədiyini necə başa düşək? Və yaxud Gürcüstanda aldığınız diplom nə dərəcədə xaricdə təhsilinizi davam etdirmək və nə dərəcədə qlobal əmək bazarında rəqabət aparmaq imkanı yaradacaq?

Bunun üçün beynəlxalq standartlar mövcuddur.

Hesab olunur ki, bu standartlar nə dərəcədə qorunarsa, sizin təhsil aldığınız mühit də o qədər keyfiyyətli olar və bununla da necə təhsil aldığınız bütün dünyaya aydın olar.

Vacib beynəlxalq standartların siyahısı 2017-ci ilin 5 may tarixindən Gürcüstanın təhsil və elm nazirinin sərəncamı ilə yenilənib: Əvvəl avtorizasiya statusunu qazanmaq üçün yalnız 3 standartı qane etmək yetərli idisə, indi onların sayı praktiki olaraq iki qat artıb və bu gün ali təhsil müəssisələri 7 beynəlxalq standartı qane etməlidirlər.

**Standartlar isə bunlardır:**

- Ali təhsil müəssisələrinin missiyası və strateji inkişafı;
- Ali təhsil müəssisələrinin təşkilati strukturu və idarəsi;
- Təhsil proqramları;
- Ali təhsil müəssisələrinin heyəti;
- Tələbələr və onlara dəstək olan tədbirlər;
- Tədqiqat, inkişaf və ya başqa yaradıcı işlər;
- Material, məlumat və maddi resurslar.

Yenilənmiş standartlarla Gürcüstanda cəmi 28 ali təhsil müəssisəsi avtorizasiyadan keçib. Onlardan 24-ü avtorizasiya alıb. Bu o deməkdir ki, avtorizasiya şurasının qərarına əsasən, həmin 24 universitet beynəlxalq şəkildə tanınmış standartları və prosedurları qane edib. Ancaq onlardan dördü – özəl **Azad Universitet, İ.Cavcavadze adına Dövlət Universiteti, Ş.Rustaveli adına Dövlət Teatr və Kino Universiteti və Tbilisi Dövlət Tibb Universiteti** beynəlxalq standartlara uyğun olan ən yaxşı təhsil ocaqları olaraq seçildi. Bu o deməkdir ki, bu universitetlər növbəti 6 il ərzində öz işlərini əlavə hansısa şərti yerinə yetirmədən və ya hesabat təqdim etmədən davam etdirə biləcəklər.

Qeyd edək ki, ali təhsil müəssisələrinin standartlara uyğunluğunu ekspertlər şurası müəyyən edir. Şuraya yerli və xarici işlə təmin etmə bazarının ekspertləri və tələbələr daxildir. Hər bir təhsil müəssisəsi üçün hər standart 4 meyar əsasında qiymətləndirilir.

**Meyarlar:**

Tələblərə uyğundur;

Tələblərə daha çox uyğundur;

Tələblərə bir hissəsi uyğundur;

Tələblərə uyğun deyil;

Ekspertlərin nəticələri ictimaidir və onlar Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzin veb-səhifəsində – www.eqe.ge-də yerləşdirilib. Məhz onlara istinadən artıq avtorizasiya qazanmış universitetlərin siyahısı təyin edilib. Səhifədə həmçinin 2019-2020-2021-ci illərdə yeni standartlarla avtorizasiyadan keçməli olacaq ali təhsil müəssisələrinin siyahısı da verilib.

Hazırladı: Aynurə ƏLİYEVA

## İCTİMAİ MƏKTƏBLƏRDƏ ÇİN DİLİ TƏDRİS OLUNACAQ



Gürcüstanda builki tədris ilindən başlayaraq ictimai məktəblərdə Çin dili tədris olunacaq. Bu barədə Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi məlumat yayıb.

Məktəblərin istəyindən asılı olaraq, Çin dili təhsil müəssisələrində ikinci xarici dil kimi öyrədiləcək.

Çin dilini istənilən ictimai məktəb 5-ci sinifdən başlayaraq tədris edə biləcək. Bu dili tədris edəcək müəllimlərin hazırlanması ilə bağlı proqram həyata keçiriləcək.

Gürcüstan məktəblərində Çin dilinin populyarlaşdırılmasını nəzərdə tutan memorandum Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batişavili və Çin Xalq Respublikasının Gürcüstandakı səfiri Dzi Yençi arasında imzalanıb.

Qeyd edək ki, hazırda orta məktəblərdə məcburi xarici dil ingilis dilidir. Bəzi ictimai məktəblərdə şagirdlərin ikinci xarici dil kimi seçə biləcəyi rus, italyan, alman və fransız dilləri də tədris olunur.

## MƏKTƏBLƏRDƏ YAZ TƏTİLİNİN TARİXİ MƏLUM OLUB



2018-2019-cu tədris ilində Gürcüstanın ümumtəhsil müəssisələrində yaz tətili mart ayından başlayacaq.

Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin bildirdiyinə əsasən, şagirdlərin yaz tətili cari ilin 8 mart tarixindən başlayacaq və 14 marta qədər davam edəcək. Tədris prosesi 15 mart tarixində, cümə günü başlayacaq.

## TBİLİSİDƏ XOCALI SOYQIRIMI İLƏ BAĞLI MƏLUMATLANDIRMA AKSİYASI KEÇİRİLİB




Tbilisidə Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı məlumatlandırma aksiyası keçirilib. Aksiyanı azərbaycanlı gənclərin təmsil olunduğu "Difai" təşkilatı keçirib.

"Xocalıya ədalət" yazısı olan jiletlər geyinmiş gənclər mərkəzi Rike parkında şəhər sakinləri və əcnəbi qonaqlara Xocalı faciəsi barədə gürcü və ingilis dillərində olan məlumat vərəqələri və broşürlər paylayıblar.

Aksiyanın keçirilməsinə Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyi dəstək verib.

Aksiya Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüskarı olduğu "Xocalıya ədalət" beynəlxalq kampaniyaya dəstək məqsədi daşıyıb.



# ხოჯალოს ტრაგედიიდან 27 წელი გავიდა

1992 წლის 26 თებერვალს სომეხთა შეირაღაბეულმა ძალებმა ყოფილი სსრკ-ს ხანქენდში მდებარე 366-ე მოტომსროლელთა დივიზიის მონაწილეობით აზერბაიჯანელი ხალხის წინააღმდეგ უანალოგო ხოჯალოს გენოციდი განახორციელოს. სომხებმა ქალაქ ხოჯალოს მოსახლეობა დაარბიეს, ასობით კაცი, მათ შორის მოხუცები და ბავშვები აწამეს და მოკლეს, ტყვებად აიყვანეს, ქალაქი მიწის პირისგან აღგავეს. ხოჯალოს ოკუპაციის დროს მოსახლეობას ქალაქიდან გასასვლელად დერეფანი არ დაუტოვეს, უმოწყალოდ ამოხოცეს ყოველი სულიერი. ამ საშინელი მოვლენიდან რამდენიმე დღის შემდეგ ტელერეპორტიორის მიერ გადაღებულმა საშინელმა კადრებმა მთელი მსოფლიო შეაძრწუნა. ათობით მოხუცის, ბავშვის და ქალის გვამი ატყავებული იყო, სახეები ტყვიებით და ავტომატის კონდახებით დაჩეხილი ჰქონდათ.

ხოჯალოს მოსახლეობის 613 კაცი მოკლული, 487 კაცი დასახიჩრებული იქნა. 1275 კაცი- მოხუცი, ქალი და ბავშვი კი ტყვედ იქნა აყვანილი და საშინელი ტანჯვა-წამების მსხვრეპლად იქცა. 150 კაცის ბედი კი დღემდე გაურკვეველია, ისინი უგზო-უგვლოდ არიან დაკარგულნი. ხოჯალოში ამოხოცილი 613 კაციდან 106 ქალი, 63 ბავშვი და 70 მოხუცი იყო. ამ ტრაგედიის დროს 8 ოჯახი მთლიანად იქნა განადგურებული, 24-მა ბავშვმა მშობლები, 130-მა კი მშობლებიდან ერთი დაკარგა.

ხოჯალო გასული საუკუნის ყველაზე დიდი ტრაგედიაა. ხოჯალოს ტრაგედია, როგორც გენოციდის აქტი მრავალი წლების მანძილზე დაუვიწყარი დარჩება. ხოჯალოს ტრაგედია,



ეს არის სომეხი ნაციონალისტების მიერ აზერბაიჯანლების წინააღმდეგ განხორციელებული ეთნიკური წმენდისა და გენოციდური პოლიტიკის სისხლიანი ფურცელი.

ქალაქ ხოჯალოს ოკუპაციის დროს მშვიდობიანი აზერბაიჯანელი მოსახლეობის წინააღმდეგ სისასტიკის განმხორციელებლები და ჟენევის კონვენციის, ადამიანის უფლებების შესახებ საერთო დეკლარაციის (გეო მთავარი მეჯლისის მიერ 10.12.1948 წ.-ის თარიღში იქნა მიღებული) 2, 3, 5, 9 და 17 მუხლების, სამხედრო კონფლიქტების დროს ქალებისა და ბავშვების დაცვის შესახებ დეკლარაციის (გეო მთავარი მეჯლისის მიერ 14.12.1974 წ.-ის თარიღში იქნა მიღებული), გენოციდის დანაშაულთა წინააღმდეგ და დამნაშავეთა დასჯის შესახებ კონვენციის (გეო მთავარი მეჯლისის მიერ 09.12.1948 წ.ის თარიღში იქნა მიღებული) მოთხოვნითა უხეშად დამრღვევები დღემდე არ არიან დასჯილნი.

## MARNEULİDƏ XOCALI FACİƏSİNİN İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ ANIM TƏDBİRİ KEÇİRİLİB

Marneuli rayonunda Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. "Report"un yerli bürosu xəbər verir ki, mərasim Azərbaycanın Gürcüstandakı səfirliyinin təşkilatçılığı və Kvemo Kartli bölgə rəhbərliyinin dəstəyi ilə baş tutub.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, Kvemo Kartli bölgəsinin qubernator müavini Zaur Darğallı, Gürcüstan parlamentinin deputatları - Ruslan Hacıyev, Tamaz Naveriani və Marneulinin ictimaiyyət nümayəndələri iştirak ediblər.

D.Həsənov çıxışında Xocalı faciəsinin qısa tarixi barədə danışıb. O bildirib ki, bir sıra ölkələrin parlamentlərində Xocalı soyqırımı ilə bağlı müvafiq qətnamələr qəbul edilib: "Çox təəssüflər olsun ki, Xocalıdakı qətliamın günahkarları bu günə qədər layiqli cəzalarını almayıblar. Hər il faciənin ildönümü tarixlərində dünyanın müxtəlif ölkələrində Xocalı faciəsinin dünya ictimaiyyətinə tanıdılması məqsədilə müxtəlif tədbirlər keçirilir. Bu istiqamətdə Leyla Əliyevanın təşəbbüskarı olduğu "Xocalıya ədalət" kampaniyasının müstəsna xidmətləri var".

Səfirin çıxışından sonra Xocalı faciəsinin qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra çıxış edən R.Hacıyev deyib ki, Xocalı faciəsinin dəhşətləri heç zaman unudulmayacaq: "Milliyətindən asılı olmayaraq istənilən insan Xocalı faciəsi kimi qətliamları qınamalıdır. Təəssüflər olsun ki, bu faciəyə dünya ictimaiyyəti yetərincə qiymət verməyib. Xocalı faciəsi Gürcüstanda yaşayan azərbaycanlıların da ağrıyan yarasıdır. Azərbaycanın kədəri Gürcüstanın, Gürcüstanın kədəri isə Azərbaycanın kədəridir. Gürcüstanın işğal olunan ərazilərində də dinc sakinlərə qarşı vəhşiliklər törədilib. Əminəm ki, hər iki dövlətin ərazi bütövlüyü uğrunda haqlı mübarizəsi hər iki ölkənin ərazi bütövlüyünün təmin olunması ilə nəticələnəcək".



Z.Darğallı bildirib ki, Gürcüstan və Azərbaycan tarix boyu eyni taleləri yaşayıblar: "Əminəm ki, Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində aparılan işlər, soyqırıma hüquqi qiymətin verilməsi tələbi birgə səylər nəticəsində təmin ediləcək. Gürcüstan və Azərbaycan işğal altında olan ərazilərinin azad olunması uğrunda mübarizə aparır və əminəm ki, hər iki ölkə ərazi bütövlüklərini bərpa edəcəklər və bölgədə sülh təmin olunacaq".

T.Naveriani çıxışında Xocalı faciəsi ilə bağlı azərbaycanlılara başsağlığı verib: "Faciə zamanı hətta günahsız körpələr qətlə yetirilib. Bu cür qətliamlar bir daha təkrarlanmamalıdır. Gürcüstan bölgədə sülhün bərqərar olmasının tərəfdarıdır. Bölgədə mövcud münaqişələrin birgə səylərlə həll olunacağına inanıram".

Tədbir Marneuli ziyalılarının çıxışları ilə davam etdirilib. Onlar Xocalı faciəsinin yalnız azərbaycanlılara qarşı deyil, insanlığa qarşı cinayət olduğunu bildiriblər. Ziyalıların sözlərinə görə, Xocalı faciəsinə Gürcüstanda da hüquqi qiymət verilməlidir.

Sonda "Xocalıya ədalət" kampaniyası çərçivəsində hazırlanmış sənədli film nümayiş etdirilib.

Mərasim çərçivəsində "Ata Holdinq" mərkəzində Xocalı soyqırımını əks etdirən fotoşəkillər və faciə haqqında xarici mətbuatda yer almış məqalələr, Dağlıq Qarabağ münaqişəsi, Xocalı faciəsi haqqında Azərbaycan, ingilis, rus və gürcü dillərində nəşr olunmuş kitabların sərgisi də təşkil olunub.

# NALMIX

İnsanlar dəyişikliyi sevmirlər. Çünki dəyişikliklər (xüsusilə də inqilab kimi kəskin dəyişikliklər) alışılmış – çoxdan mənimsənilmiş, doğmalaşmış nizamın dağılması ilə nəticələnir.

Bunu Freyd deyir. İndi təsəvvür edin biz nə ilə qarşı-qarşıyayıq. Əsrlərlə pərçimlənmş bir şeyi kökündən oynatmaq istəyirsən. Hər dəfə təpik vuranda silkələnmədiyini, tərpənmədiyini ağrın ilə hiss edirsən. Üstəlik problemin kökünün qurumaması üçün dibinə su tökənlər var – bəraət qazandıranlar. Bircə yol var – su tökməmək, su tökməyə qoymamaq. Bircə bu yolla bizi bu kökə salmış min il əvvəlin həyat tərzindən qurtulmuş ola bilərik. Əgər bir şeyin səni urvatsız kökə saldığını dərk edirsənsə, bunu hərtərəfli rədd etməlisən. Durub içində yaxşı şey axtarmamalısan. İstisnasız rədd etməlisən. Əgər bir şeyi kökündən qurutmaq, çıxarıb atmaq istəyirsənsə güzəştə getməməlisən. Əgər bir müəllim şagirdlərinin məktəb oxumasını istəyirsə, qızını 13 yaşında ərə verməməlidir. Əgər bir müəllim düşüncəsi formalaşmış nəsil yetişdirmək istəyirsə, bunun əksini təbliğ edən məsələlərin hamısına etiraz etməlidir, hamısını boykot etməlidir. Bizə dəyişməyi özündən başlayan insanlar lazımdır. Natamam, yarı ağ, yarı qara, ala-bula insanlardan nümunə olmaz. Şagirdlərinə oxuyun deyib, qızını oxutmayıb, 14-cü qışında nişanlayıb, 16-cı baharında ərə verən bir nümunə əl vermir, oğluna 13 yaşında qız alan nümunəsi bizə əl vermir. Burada oxuyun deyib, orada 15+18=toyunda tamadalıq edən adam əl vermir.

Birini oğurluq etdiyinə görə həbs edən, digərini qohum olduğu üçün ört-basdır edən polis nümunəsi yaramır.

Bizə əqidəsinə sadiq olmayan, əqidəsindən kənara çıxan adamlar nümunə ola bilməz. "Elə də olur, belə də olur" deyən adamlar bizi bir yana çıxara bilməz. Mənim camışım qonşunun camışını vurub öldürübsə, heyvandır, nə etmək olar, qonşunun camışı mənim camışımı öldürübsə, fikrə gedib, qoy qanun kitabına baxımfason, Nəsrəddinvari adamların mayaklığı bizi azdıracaq. Eyni cür hərəkətin birinə dəli, birinə bəli deyən bir təbəqə bizi işığa apara bilməz. Bizə proqressiv əqidəsi sementlənmiş təbəqə lazımdır, uçurulası iki şeyin birini uçurub, birini saxlayan yox. Müəyyən və qeyri-müəyyən vəziyyətdən dolayı istisnaya yol verən insanlar bizə əl vermir.

Özümüzün əməl etmədiyimiz bir şeyə əməl etdirmək, inanmadığımız bir şeyə inandırmaq, dəyişmədiyimiz bir şeyi dəyişdirtmək mümkünatsızdır.

Əgər bu günə kimi nəyisə dəyişə bilməmişiksə alayarımçıqlığımız ucbatından olub. Düşünən təbəqəmizin alayarımçıqlığından olub. Yarı ondan, yarı bundan olan elitamızın günahı olub. Həm doğru - həm oğru, həm polis - həm "vor zakon", həm oxu deyən - həm başını burax deyən, eyni şeyi bir tərəfdə rədd edən - digər tərəfdə qəbul edən təəssüratlı, gah irəli istiqamət verən, gah geri istiqamət verən təbəqəmiz bizi əsrlərdi eyni yerdə "buksavatlamağa" məhkum edib. Alayarımçıq tərəqqi planımızla bir addım irəli, bir addım geri gedib-gəlib eyni yerdə eşdiririk. Bizə gah mıxa vurub çalan, gah da nala vurub, vurduğunu geri çıxaran nalbənd yox, məhz hər vuranda mıxa vuran nalbənd lazımdır. Problem də ondadır ki, mənfi tərəfindən imtina etmək istəsək də, müsbətindən imtina edə bilmirik, "xəyanətkar", "nankor" damğasından çəkindiyimiz üçün. Amma başqa yol da yoxdur. Yola çıxmağa onsuz da gecikmişik, bizə təkcə mıxa vuran nalbənd lazımdır ki, tezcə yola düşək (at ölməmiş, qaranlıq düşməmiş).Yolumuz uzundu.



*Həmid SADIX*
*Kalinin ictimai məktəbinin köməkçi müəllimi*

## KİTAB OXUMA ALIŞQANLIĞI QAZANDIRACAQ 8 ÜSUL



***Elcan HACIYEV***
***Tbilisi Dövlət Universiteti, Tibb fakültəsi***

*Həyatımızda dönəm-dönəm "Artıq daha çox kitab oxuyacam" kimi özümüzə sözlər verərik. Ancaq hərəkətə keçmək hər zaman söyləmək qədər asan bir müddət olmaz. Zamanımız olmadığından, başladığımız kitabın sıxıcı olduğundan şikayətlənib, özümüzü kitabı yarıda buraxmış olaraq görə bilərik. Əslində kitab oxumaq alışqanlıq halına gəldiyi zaman, sandığınız qədər zor olmaqdan çıxır. Önümüzdə duran bütün bu bariyerləri qaldırmaq üçün sizə 8 sadə, amma təsirli üsulumuz var:*

**1. Kitab təhlillərini oxuyun.**

Bəzi kitablar elə sosial şəbəkələrdə izlədiyimiz yazıçılara aiddir və o kitabları gördüyümüz zaman istər-istəməz almaq istəyərik. Ancaq heç bilmədiyimiz bir kitab haqqında "Goodreads", "Instagram" və s. kimi saytlarda oxucular tərəfindən yazılmış kitabın içərisindəkilərə dair məlumat əldə edə bilərsiniz. Eyni zamanda başqalarının rəylərini oxuyaraq da o kitab haqqında daha çox fikir əldə edə bilərsiniz. Beləcə, öz zövqümüzə və maraq dairəmizə görə bir kitaba başlamış olarıq.

**2. Hansı nəşriyyatdan aldığınıza diqqət edin.**

Xüsusilə tərcümə edilmiş kitabları bir çox nəşriyyatdan əldə edə bilərsiniz, ancaq hamısının dili təəssüf ki, eyni deyildir. Bəzi tərcümələr doğrudan da oxunulmayacaq qrammatikaya və cümlə quruluşuna sahibdir. Özünüzə mümkün qədər keyfiyyətli nəşriyyat seçsəniz, aldığınız kitablarda tərcümə xətaları ilə qarşılaşma nisbəti də bir xeyli azalar. Beləcə, kitabı oxuyarkən mənasız cümlələr yerinə özünüzü hekayənin axıcılığına təslim edə bilərsiniz.

**3. Özünüzə bir nizam müəyyən edin.**

İşə getmək, məktəbə getmək, öhdəliklərinizi yerinə yetirmək, qidalanmaq kimi müəyyən nizamlarınız necə varsa, kitab oxumaq üçün də özünüzə bir saat müəyyən edin. İlk başlarda yaratdığınız bu nizam daha sonra davam edəcəkdir. Beləcə, ən azı bir neçə ay boyunca o saatda oxuyaraq özünüzdə yeni bir alışqanlıq yarada bilərsiniz və nizamlı bir oxucu olmaq yolunda böyük bir addım atmış olarsınız.

**4. Bitirmək üçün tələsməyin.**

Bəzi kitablar mövzu olaraq daha zəngindir və oxunması bir az daha zordur. Belə kitabları bitirmək üçün tələsmək yerinə, hər səhifənin dadını alaraq və anlayaraq yavaş-yavaş oxuyun.

Unutmayın, önəmli olan nə qədər çox oxuduğunuz deyil, oxuduğunuzu nə qədər anladığınızdır.

**5. Yanınızda kitab olsun.**

Xüsusilə işə, ya da məktəbə, universitetə ictimai nəqliyyatla gedib-gəlirsinizsə, yolda keçirdiyiniz vaxtı kitablarla doldurmaq əla bir fikir ola bilər. Metroda, ya da avtobusda həsəd apararaq baxtığınız kitab oxuyan insanlardan biri olmaq düşündüyünüz qədər çətin deyil.

**6. Təkrar oxuyun.**

Sevdiyiniz kitabı təkrar oxumaqdan çəkinməyin. Oxuduğunuz eyni hekayəni illər sonra təkrar oxuduğunuz zaman daha fərqli bir baxış bucağıyla anladığınızın fərqinə varacaqsınız. Beləcə, özünüzdə olan dəyişiklikləri daha aydın müşahidə edə biləcəksiniz.

**7. Hər yerdə oxuyun.**

Olduğunuz yeri və zamanı bəhanə etmək əvəzinə, fürsət tapdığınız anlarda kitab oxuyun. Məsələn, səhər planladığınızdan daha erkən oyandınız? O zamanı sosial şəbəkələrdə keçirmək əvəzinə daha yararlı bir şəkildə dəyərləndirin və əlinizin altındakı kitabınızı oxumağa başlayın.

**8. Ehtiyacınız olmayan kitabları verin.**

Bəzi kitablarla emosional əlaqələr qurarıq, ancaq bəziləri isə bizi o qədər də əks etdirməz və təkrar oxunulacaq kitablar kateqoriyasına girməz. Kitab rəfinizdə etdiyiniz təmizləmələr ilə yeni kitablar üçün yer aça bilərsiniz. Beləcə, sizi daha yaxşı ifadə etdiyini düşündüyünüz kitablardan ibarət kitabxananızı da yarada bilərsiniz.

**Əlavə Maddə: Çox kitab oxuyan bir dostunuz olsun.**

*Bəzən elə olur ki, ruhən və fiziki olaraq yorğun oluruq. Kitab oxumağa özümüzdə güc tapa bilmirik. Belə olduğu zamanlar ətrafımızda olan o kitab əlindən düşməyən dostumuz bizim üçün əla bir motivasiya mənbəyi ola bilər.*

## S.ZURABİŞVİLİ GÜRCÜSTAN TOLERANTLIĞININ YUNESKO-NUN QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINA DAXİL EDİLMƏSİ TƏŞƏBBÜSÜ İLƏ ÇIXIŞ EDİB



Prezident Salome Zurabişvili Fransaya səfəri çərçivəsində YUNESCO-nun baş katibi Odri Azulayla görüşüb. Görüşdə təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın dərinləşdirilməsi, ölkənin mədəni irs abidələrinin qorunması, qadınların təhsil almaq imkanının yaradılmasının əhəmiyyəti barədə müzakirələr aparılıb.

S.Zurabişvili Gürcüstan tolerantlığının YUNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi təşəbbüsü ilə çıxış edib.

O, Gürcüstanda müxtəlif etnik və dini mənsubiyyətə məxsus insanların sülh şəraitində yaşamaq ənənəsinin əsrlər boyu davam etdiyini bildirib.

"Gürcüstanda antisemitizmlə bağlı heç bir hal mövcud deyil. Tolerantlıq bu gün dünyada müəyyən qədər çatışmır. Biz bu ənənəni möhkəmləndirməliyik ki, təqlid üçün nümunə olaq", - deyə S.Zurabişvili bildirib.

## GÜRCÜSTANIN VƏTƏNDAŞ BƏRABƏRLİYİ VƏ İNTEQRASİYASI DÖVLƏT STRATEGİYASI ÇƏRÇİVƏSİNDƏ 2018-Cİ İL ÜZRƏ FƏALİYYƏT PLANININ NƏTİCƏLƏRİNƏ HƏSR OLUNMUŞ TƏQDİMAT MƏRASİMİ KEÇİRİLİB



Tbilisidə Gürcüstanın Vətəndaş Bərabərliyi və İnteqrasiyası Dövlət Strategiyası çərçivəsində 2018-ci il üzrə fəaliyyət planının nəticələrinə həsr olunmuş təqdimat mərasimi keçirilib.

İllik hesabatda ötən il Gürcüstanda yaşayan milli azlıqların ölkənin vətəndaş cəmiyyətinə inteqrasiyası sahəsində həyata keçirilmiş tədbir və layihələr barədə ətraflı məlumat təqdim olunub.

Tədbirdə Gürcüstanın barış və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili, Gürcüstan ombudsmanı Nino Lomcaria, digər rəsmi şəxslər, milli azlıqların təmsil olunduğu təşkilat nümayəndələri iştirak ediblər.

Bildirilib ki, ötən il Gürcüstanın ali məktəblərinə milli azlıqlar üçün nəzərdə tutulmuş "1+4" proqramı üzrə 806 azərbaycanlı abituriyent tələbə adını qazanıb. Onların 96 nəfəri 100%-lik qrantla ali məktəblərin gürcü dili üzrə hazırlıq kurslarında təhsil alırlar. Qrantın ümumi büdcəsi 225 min laridir.

Hesabatda qeyd olunub ki, ötən il "1+4" proqramı ilə universitetlərə qəbul olan tələbələrin sayı illik müqayisədə 184 nəfər artaraq 1231 nəfər təşkil edib.

Qeyd olunan proqram üzrə təhsil alan milli azlıqları təmsil edən 142 tələbə mərkəzi və yerli dövlət qurumlarında təcrübə proqramında iştirak ediblər.

Sənədə əsasən, ötən il Heydər Əliyev adına Tbilisi Dövlət Azərbaycan Dram Teatrına 7 tamaşanın səhnəyə qoyulması üçün 215 min lari, Mirzə Fətəli Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyinə isə 37 min lari məbləğində vəsait ayrılıb.

Kvemo Kartli bölgəsində ümmi dəyəri 318627 lari olan 66 infrastruktur layihə həyata keçirilib.

## BÖLGƏDƏ 7 300 000 LARİLİK LAYİHƏLƏR HƏYATA KEÇİRİLƏCƏK



Fevralın 27-si Kvemo Kartlinin Dövlət Müvəkkili Administrasiyasında Bölgə Məsləhət Şurasının növbəti iclası baş tutub.

Kvemo Kartli qubernatoru Şota Rexviaşvili iclasda bələdiyyə rəhbərləri ilə birgə Kvemo Kartlinin regional inkişafı strategiyasının 2019-2021-ci illərə olan fəaliyyət planındakı dəyişikliklər haqqında müzakirələr aparıb.

Bələdiyyələrdə Regional İnkişaf Fondunun maliyyəsi ilə həyata keçiriləcək 7 milyon 300 min lari dəyərində layihələr haqqında söhbət aparılıb.

Qeyd edilməlidir ki, Qantiadi kəndində avtomobil yolunun bərpası üçün Regional İnkişaf Fondundan əlavə 900 000 lari, yerli büdcədən isə 560 000 lari ayrılıb.

Şura üzvləri region miqyasında başlanılan infrastruktur layihələrini müzakirə ediblər və işlərin gedişatını qiymətləndiriblər.

## PARLAMENTDƏ QARDABANİDƏKİ BƏZİ PROBLEMLƏR HAQQINDA DANIŞILIB

Parlamentin iclasında Qardabani rayonunda mövcud olan bəzi sosial problemlər gündəmə gətirilib. Deputat Savalan Mirzəyev Gürcüstanın regional inkişaf və infrastruktur naziri Maia Tskitişvilinin çıxışından sonra Qardabani sakinlərini narahat edən məsələləri dövlət rəsmisinin diqqətinə çatdırıb.

S.Mirzəyev bildirib ki, Qardabani rayonunun Muğanlı kəndində içməli su problemi illərdir ki, həll olunmur: "Regional İnkişaf və İnfrastruktur Nazirliyindən xahiş edirəm ki, bu məsələni diqqətdə saxlasınlar və problem öz həllini tapsın. Kənd əhalisi içməyə yararsız olan texniki sudan istifadə edir və bu da insan sağlamlığına çox ciddi ziyan vurur".

S.Mirzəyevin qaldırdığı digər problem rayondakı Levan Devdarianinin adını daşıyan 1 saylı ictimai məktəbin idman zalının acınacaqlı vəziyyəti ilə bağlı olub: "Levan Devdariani adına hər il basketbol, voleybol və digər idman növləri üzrə turnirlər keçirilir. Təəssüflər olsun ki, bu turnirlər həmin məktəbdə deyil, başqa məktəbin idman zalında təşkil olunur. Çünki 1 saylı ictimai məktəbin zalı acınacaqlı vəziyyətdədir. Zalın divarları dağılıb, döşəmə yararsız hala düşüb. Xahiş edirəm ki, yerli özünüidarəetmə



orqanları ilə birgə səylər nəticəsində sözügedən idman zalı təmir olunsun".

Qeyd edək ki, M.Tskitişvili parlamentdə "nazir saatı" adlandırılan formatda deputatlar qarşısında hesabatla çıxış edib. Çıxışdan sonra debatlar keçirilib. Bu il qanunverici orqanda "nazir saatı" formatında 11 nazir hesabat təqdim edəcək.

## QASIMLI İCTİMAİ MƏKTƏBİNİN ŞAGİRDLƏRİNƏ LAYİHƏ YARATMAQLA BAĞLI TƏLİM-SEMİNAR KEÇİRİLİB



Marneuli bələdiyyəsinin Qasımlı ictimai məktəbinin yuxarı sinif şagirdlərinə "Tolerantlıq, mülki məlumatlandırma və inteqrasiyaya dəstək" (PİTA) proqramı çərçivəsində "Start Up" mövzusunda təlim-seminar keçirilib.

Məktəb nümayəndəsinin qeyd etdiyinə görə, təlim layihə yaratmaqla bağlı idi. Şagirdlər "Effektli layihəni necə yazmaq olar" və "Start Up nədir?" haqqında məlumat alıblar.

Proqram PİTA tərəfindən Gürcüstanda BMT Assosiasiyasının (UNAG), ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyə dəstəyi ilə həyata keçirilib.

## AVTOMAGİSTRALLARIN TİKİNTİSİ VƏ YENİDƏN QURULMASI ÜÇÜN AİB GÜRCÜSTANA 250 MİLYON AVRO KREDİT AYIRACAQ

Gürcüstan hökuməti və Avropa İnvestisiya Bankı (AİB) arasında avtomagistralların tikintisi və yenidən qurulması ilə bağlı maliyyə sazişi imzalanıb. Sənədə əsasən, AİB Gürcüstana 250 milyon avro məbləğində kredit ayıracaq.

Sazişi Gürcüstan tərəfindən maliyyə naziri İvane Maçavariani, AİB tərəfindən isə bankın vitse-prezidenti Vazil Hudak imzalayıblar.

Kredit vəsaiti Rustavi şəhərindən Azərbaycan sərhədində yerləşən "Sınıq körpü" və Ermənistanla sərhəddəki "Sadaxlı" sərhəd-keçid məntəqələrinə qədər olan avtomagistralların və digər yolların təmir və yenidən qurulmasına xərclənəcək.

İmzalanma mərasimində çıxış edən Gürcüstanın baş naziri Mamuka Baxtadze AİB-in ayırdığı krediti ölkədə əhəmiyyətli infrastruktur layihələrin inkişaf etdirilməsi baxımından




dan vacib maliyyə dəstəyi adlandırıb: "Biz, Avropa İnvestisiya Bankı ilə əməkdaşlığa önəm veririk. Məhz bu bank Gürcüstanın ən vacib tərəfdaşlarından biridir və bizi çox yaxşı münasibətlər birləşdirir".

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI
28 FEVRAL 2019-CU İL/ №004 (84)

# Yeni YOL

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | ყენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## İKİLİ VƏTƏNDAŞLIQ ALMAĞIN ŞƏRTLƏRİ

İkili vətəndaşlığın müəyyən edildiyi "Vətəndaşlıq haqqında" qanuna dəyişikliklər daxil olur.

Dəyişikliklərə əsasən, xarici vətəndaşlıq götürən Gürcüstan vətəndaşı xarici ölkə vətəndaşlığını alana qədər Gürcüstan dövlətindən gürcü pasportunu saxlamaqla bağlı razılıq aldığı halda Gürcüstan vətəndaşlığı saxlanıla bilər.

Qanun layihəsinə əsasən, Gürcüstan vətəndaşlığını saxlamaq istəyən şəxs qeyd olunan şərtləri qane etməlidir:

- Ailə üzvlərindən heç olmasa biri vətəndaşlıq almaq istədiyi ölkənin vətəndaşı olmalıdır;

- Ən azı 5 il ərzində qanuni əsasla vətəndaşlıq almaq istədiyi ölkədə yaşamalı, yaxud da işləməlidir.

Gürcüstan vətəndaşlığının saxlanılmasına dövlət və ya ictimai təhlükəsizlik maraqlarına uyğun olmadığı halda yol verilmir.

Qanun layihəsi müvəqqəti vətəndaşlıq hüququ haqqında yeniliyi də nəzərdə tutur. Şəxs başqa ölkənin vətəndaşlığını qazandığına görə Gürcüstan vətəndaşlığını itiribsə,




qeyd olunan qanunun qüvvəyə minməsindən 1 il ərzində Dövlət Xidmətləri Agentliyinə müraciət edə və Gürcüstan vətəndaşlığının bərpa qaydası ilə verilməsini tələb edə bilər.

Gürcüstan vətəndaşlığının istisna qayda ilə verilməsi zamanı ("ikili vətəndaşlıq") nəzərə alınmalıdır ki, xarici ölkə vətəndaşı Gürcüstanı öz vətəni hesab etsin və eyni zamanda özü və ya onun əcdadı Gürcüstanın işğal olunmuş ərazisində yaşayan və ya qeyd olunan ərazidən məcburi köçkün olsun; Müxtəlif vaxtlarda siyasi düşüncəsinə və ya ağır sosial-iqtisadi vəziyyətinə görə miqrasiya etmiş olsun;

Bundan əlavə, "ikili vətəndaşlığın" xarici vətəndaşa verilməsi mümkün olacaq, əgər o:

- Gürcüstanda anadan olmuş etnik azlıq nümayəndəsidir və Gürcüstanı öz vətəni hesab edirsə;

- Gürcüstanda ölkənin iqtisadi inkişafına vacib qatqısı varsa və ya investisiya həyata keçirir və ya keçiribsə;

- İdman, elm və ya incəsənət sahəsində uğurludur və Gürcüstanın adı ilə xidmətinə davam etmək istəyirsə.

Qeyd edilməlidir ki, istisna qaydada vətəndaşlıq verilən zaman başqa ölkənin vətəndaşlığından çıxmağı təsdiqləyən sənədin təqdim edilməsi lazım olmayacaq.

Həmçinin vətəndaşlığın verilməsi üçün Gürcüstanda yaşamaq qaydaları da dəyişir. Adi qaydada vətəndaşlığın verilməsi üçün 5 illik yaşama müddəti 10 ilə qədər uzadılır, asanlaşdırılmış qaydada vətəndaşlığın verilməsi isə 2 illik müddətdən 5 ilə qədər artır.

Qanun layihəsinin məqsədi vətəndaşlıq məsələlərinin konstitusiyanın yeni nəşri ilə uyğunlaşdırılmasıdır.

## AMİRAN QAMKRELİDZE: GÜRCÜSTANDA 100 000 NƏFƏRDƏ 70-75 VƏRƏM HALI QEYDƏ ALINIR



Gürcüstanda 100 000 nəfərdə 70-75 vərəm halı qeydə alınır. Bu haqda Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri Amiran Qamkrelidze bildirib. Onun sözlərinə görə, 90-cı illərdə Gürcüstanda bu rəqəm 100 000 nəfərdə təqribən 160-170 idisə, bu gün təqribən 70-75 çərçivəsindədir və bu, əhəmiyyətli dərəcədə azalma deməkdir.

"Biz son illərdə təqribən vərəmin 2500 yeni halını qeydə almışıq və 1-ci və 2-ci sıra xəstəlik halında hər kəsə müalicə olmaq imkanı verilir", - A.Qamkrelidze bildirib.

O, həmçinin QİÇS-lə bağlı da danışıb, bildirib ki, indiki mərhələdə Gürcüstanda 8000 QİÇS-ə yoluxma halı qeydə alınıb, ancaq QİÇS-ə yoluxanların sayı, güman ki, müqayisədə çoxdur.

"QİÇS-lə bağlı aşağı göstəricisi olan ölkəyik. Ümumi olaraq ölkədə təqribən 8000-ə qədər QİÇS halı qeydə alınıb. Amma güman edilən rəqəm təqribən 10000-10500 nəfərdir. Bu gün təqribən 4500 nəfər QİÇS-ə yoluxmuş şəxs müalicə alır",- deyə A.Qamkrelidze bildirib.

## YANVAR AYINDA GÜRCÜSTAN VƏTƏNDAŞLARI ƏN ÇOX QONŞU ÖLKƏLƏRƏ SƏFƏR EDİB

Gürcüstanın Daxili İşlər Nazirliyinin aylıq hesabatına əsasən, yanvar ayında Türkiyəyə səfər edən Gürcüstan vətəndaşlarının sayı 116220 nəfər təşkil edib ki, onların 32-nin ölkəyə girişi qadağan olunub. Ötən ay Gürcüstandan Azərbaycana isə 56462 Gürcüstan vətəndaşı səfər edib. Yalnız 1 Gürcüstan vətəndaşı Azərbaycana buraxılmayıb.

İlk üçlükdə Türkiyə və Azərbaycandan sonra Ermənistan yer alıb. Yanvarda 25012 Gürcüstan vətəndaşı Ernmənistana səfər edib.

## TBİLİSİDƏ KEÇİRİLƏN MİNİATÜR GEYİM SƏRGİSİNDƏ BORÇALI QADINLARINA XAS GEYİMLƏR DƏ TƏQDİM OLUNUB




Tbilisidə Gürcüstanın Xalq və Tətbiqi İncəsənət Muzeyində "Qafqaz qadınları – Asmat Saqiridzenin dünyası" adlı sərgi keçirilir. Sərgidə Qafqazın əksər bölgələrinin milli qadın geyimlərinin miniatür kolleksiyası təqdim olunub.

Kolleksiyanın müəllifi etnoqraf Asmat Saqiridze miniatür qadın geyimlərini originala maksimal yaxın və dəqiq formada yaradıb.

O, miniatür geyimlərin hazırlanmasında müxtəlif fond, arxiv, elmi ədəbiyyat, əlavi tarixi albomlar və digər mənbələrdən istifadə edib.

Ekspozisiyada Azərbaycan qadınlarına məxsus geyimlər də yer alıb. Sərgi ziyarətçilərinə Bakı və Borçalı bölgəsinin qadınlarına xas geyimlər təqdim olunub.

Muzeydə Azərbaycan qadın geyimləri ilə yanaşı, gürcü, çeçen, inquş, ləzgi, abxaz və digər Qafqaz xalqlarına məxsus qadın və kişi geyimləri də sərgilənir. Sərgi martın 10-na qədər davam edəcək.

## GÜRCÜSTANDA SÜDÜN VƏ ƏTİN İSTEHSALI ARTIB, YUMURTANIN İSTEHSALI İSƏ AZALIB



Gürcüstanda südün və ətin istehsalı artıb, yumurtanın istehsalı isə azalıb. Bu haqda Milli Statistika Xidməti tərəfindən yayımlanan məlumatda qeyd olunub.

Göstəricilərə əsasən, 2018-ci ilin IV kvartalında 87.0 milyon litr süd istehsal olunub. Ötən ilin analoji dövrü ilə müqayisədə bu, 4,6 faiz çoxdur (83.2 milyon litr). 2018-ci ilin süd istehsalının illik göstəricisi 532.0 milyon litr müəyyən edilib. Bu isə 2017-ci ilin müvafiq göstəricisindən 0,7 faiz çoxdur (584.4 milyon litr).

2018-ci ilin IV kvartalında 22.9 min ton ət istehsal olunub. 2017-ci ilin uyğun dövrü ilə müqayisədə bu göstərici 9,6 faiz artıb. 2018-ci ildə ətin illik istehsal həcmi 67.0 min ton müəyyən edilib. Bu, ötən ilin göstəricisindən 1,2 faiz çoxdur.

2018-ci ilin IV kvartalında 146.7 milyon yumurta istehsal olunub. Ötən ilin analoji dövrü ilə müqayisədə bu göstərici 2,9 faiz azdır.

## ÖTƏN AY 2876 NƏFƏR SÜRÜCÜLÜK VƏSİQƏSİ ALIB



Gürcüstanın Daxili İşlər Nazirliyinin hesabatına əsasən, yanvar ayında, ümumilikdə, 2876 nəfər sürücülük vəsiqəsi alıb ki, onların da 2824-ü Gürcüstan vətəndaşıdır.

Hesabat dövründə Ermənistan, Almaniya, Misir, İndoneziya, İran, Kamerun və Rusiyanın 1 vətəndaşı, Türkiyənin 2 vətəndaşı, Azərbaycanın isə 6 vətəndaşına Gürcüstan sürücülük vəsiqəsi verilib.

Sürücülük vəsiqəsinin alınması üçün imtahanda iştirak edən şəxslərin ən kiçiyinin 17, ən böyüyünün isə 68 yaşı olub.

Qeyd edək ki, Gürcüstanda alınmış sürücülük vəsiqəsindən ölkə xaricində 6 ay müddətində istifadə etmək mümkündür. Etibarlılıq müddəti başa çatandan sonra sürücülük vəsiqəsinin sahibi sənədi dəyişdirməlidir.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.